AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

CAVADOV ANAR NATİQ OĞLU

# KƏND TƏSƏRRÜFATINDA KOOPERASİYANIN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ ƏSASLARI

İxtisas: 53.12.01- sahə iqtisadiyyatı

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**GƏNCƏ - 2018**

## GİRİŞ

**Mövzunun aktuallığı.** Kənd təsərrüfatının, eləcə də bütövlükdə Aqrar-Sənaye Kompleksinin effektli inkişaf tədbirləri içərisində şəxsi, kollektiv və ictimai maraqları özündə ehtiva edən kooperasiya münasibətləri sistemi önəmli yer tutur. Kooperasiyanın əhəmiyyəti ondan ibarətdir ki, o səyləri, əmək, maliyyə, maddi-texniki və digər resursları səmərəli istifadə məqsədi ilə bir yerə cəmləşdirmək vasitəsi kimi çıxış edir. Kooperasiya bazara daha yaxşı uyğunlaşmağa və tələbatın dəyişkənliyinə çevik reaksiya göstərməyə, yerli şəraitdən daha səmərəli istifadə etməyə imkan yaradır. Kooperasiyanın bazasında, kənd təsərrüfatı istehsalçılarının sahibkarlıq qabiliyyəti təkmilləşir və eyni zamanda, kooperasiya kənd əməkçilərinə iqtisadi və sosial zəmanət verir.

Kəndli təsərrüfatı məhsulları istehsalçıları üçün kooperasiya və qarşılıqlı yardım ideyası həmişə aktual olaraq qalır. Tarixi baxımdan onun aktuallığına iki mövqedən yanaşılır: iqtisadi və sosial.

İqtisadi baxımdan kooperasiyanın əhəmiyyəti ondan ibarətdir ki, onun sayəsində kiçik əmtəə istehsalçıları istehsalı daha da genişləndirməklə elmi-texniki nailiyyətlərdən istifadə imkanları qazanırlar.

Sosial baxımdan kooperasiya kəndin həyat təminatı sisteminin təşkili və fəaliyyətinin əsas həlqəsinə çevrilir.

Aparılan tədqiqatlar və inkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, kooperasiya kənd təsərrüfatının bütün sahələrinin tarazlı inkişafını və ölkə əhalisinin etibarlı ərzaq təminatı problemlərinin həllinin başlıca şərtidir.

Son on dörd ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. Lakin, bütün bu müsbət istiqamətlərdə dəyişikliklərə rəğmən ölkənin aqrar bölməsində həllini gözləyən problemlər hələ də mövcuddur. Məhsuldarlıq göstəriciləri potensial imkanlardan, maddi - texniki resurslarla təchizat normativ göstəricilərdən xeyli aşağıdır. Torpaqların meliorativ vəziyyəti və iqtisadi münbitliyi lazımi səviyyədə olmadığından təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyi aşağı düşmüşdür. Qeyd edilən və edilməyən səbəblər ərzaq təhlükəsizliyinin təmin edilməsində problemlər yaratmaqla idxaldan asılılıq səviyyəsinin minimal səviyyəyə enməsində və ixrac potensialının artırılmasında çətinliklər yaradır.

Ölkənin aqrar sənaye istehsalının mövcud inkişaf səviyyəsi göstərir ki, hələ də kooperasiya münasibətlərinin inkişaf etdirilməsi tələb olunan səviyyədə getmir.

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasında "Regionlarda kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi və gücləndirilməsi üzrə səylərin dəstəklənməsi" də yer alıb. Eyni zamanda 14 iyun 2016 –cı il tarixli Fərmanla təsdiq olunmuş "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanunda kooperasiya münasibətlərinin, o cümlədən kooperativlərin inkişafı qaydaları göstərilmişdir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin strateji hədəfi olan 2-ci bölməsinin 7.2.3 bəndində prioritet olaraq kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı müəyyən edilmişdir. Burada ölkədə fəaliyyət göstərən təsərrüfatların həddən artıq kiçik olması, onlar arasında qarşılıqlı iqtisadi münasibətlərin qurulmaması, emal müəssisələri ilə inteqrasiya əlaqələrinin olmaması, istehsal resurslarından səmərəsiz istifadə edilməsi və rəqabətqabiliyyətli məhsul istehsalının olmaması və s. problemlərin mövcudluğu sahənin inkişafına mane olur. İnkişaf etmiş ölkələrin təcrübəsində kooperasiya münasibətlərinin uğurlu inkişafı kimi kooperativlərin, müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalının və müxtəlif istehsalçı birlikləri və assosiasiyalarının ölkəmizdə lazımi səviyyədə yayılmaması qeyd edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2017 ci il 14 iyul tarixli 3099 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022 – ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir.

Baxmayaraq ki, bir çox iqtisadçı alimlər öz elmi araşdırmalarında kooperasiya münasibətlərinin inkişafı problemlərinə geniş yer vermələrinə baxmayaraq, onun bir sıra aspektlərinə kifayət qədər aydınlıq gətirilməyib, müasir çoxukladlı sosial - iqtisadi şəraitdə həmin məsələlərin dərindən öyrənilməsi zərurəti yaradıb. Kooperasiya sisteminin inkişafına dair elmi cəhətdən əsaslandırılmış tövsiyələrin işlənib hazırlanmasına ciddi ehtiyac vardır.

Qeyd edilənlər dissertasiya işinin aktuallığını və onun işlənib hazırlanmasının həm elmi nəzəri, həm də praktik baxımdan əhəmiyyət kəsb etdiyini göstərir.

**Problemin öyrənilmə vəziyyəti.** Kooperasiyanın nəzəri - metodoloji əsasları və inkişafı problemləri ölkəmizin və dünyanın tanınmış iqtisadçı alimlərinin elmi əsərlərində geniş yer almışdır.

Ölkəmizin iqtisadçı alimlərindən Z. Ə. Səmədzadə, S.V. Salahov, Ə. Ç. Verdiyev, İ. Ş. Qarayev, H.A. Xəlilov, İ. H. İbrahimov, N. Ə. Cavadov, E. A. Quliyev, B. X. Ataşov, V. H. Abbasov, İ. V. Əhmədov, R. K. İsgəndərov, A. H. Vəliyev, H. H. Aslanov və başqaları öz əsərlərində bu problemə müxtəlif aspektdən yanaşıblar.

Xarici ölkə alimlərindən R.Ouen, F.Rayffayzen, R.Riçardson, B.Svenson, M.Şleter, U.Kinq, F.Buşye isə bu nəzəriyyənin baniləri sayılırlar.

Tədqiqat işində Rusiyada kooperativ hərəkatının canlanmasında böyük əməyi olan klassiklər N. Q. Çernışevski, N. D. Kondratyev, P. A. Kropatkin, M. İ. Tuqan-Baranovski, A.V.Çayanov, S.L.Maslov, V.F.Totomiants və müasir iqtisadçı alimlərdən V.İ.Arefyev, V.R.Boyev, İ.N.Buzdalov, A.V.Tkaç, N.J.Kovalenko və digərlərinin əsərlərindən geniş istifadə olunmuşdur.

Bazar iqtisadiyyatı şəraitində ölkəmizin aqrar sahəsində təsərrüfatların normal, səmərəli fəaliyyət göstərmələri üçün yeni kooperasiya və inteqrasiya əlaqələri qurmalarına dair kompleks tədqiqatların aparılması və müvafiq təkliflərin hazırlanması günün tələblərindən irəli gəlir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ölkədə aqrar sahədə kooperasiyanın formalaşmasının və onun səmərəli fəaliyyət göstərməsinin mexanizmini işləyib hazırlamaqdır.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- nəzəri baxımdan kooperasiyanın mahiyyəti və məzmunu izah edilərək, onun forma və növlərinin təsnifatının müəyyənləşdirilməsi;
- kənd təsərrüfatının milli iqtisadiyyatda yeri və rolunun əhəmiyyəti və ərzaq təhlükəsizliyinin təmin edilməsində vacibliyinin əsaslandırılması;
- aqrar-sənaye kompleksinin inkişafında kooperasiya-inteqrasiya əlaqələrinin başlıca amil olduğunun əsaslandırılması;
- respublikamızda məhsul istehsalının artırılması üçün dünyanın müxtəlif ölkələrində kooperativ sistemlərinin inkişafı təcrübəsinin öyrənilməsi;

- kənd təsərrüfatı torpaqların mövcud meliorativ vəziyyəti, maddi-texniki resurslarla təminat sahəsində olan problemlərin təhlili əsasında onların aradan qaldırılması üçün kooperasiya-inteqrasiya əlaqələrinin əsas çıxış yolu olduğunun əsaslandırılması;

- istehsal və istehlak kooperativlərinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

- ölkədə kooperasiya münasibətlərinin inkişafı, çoxfunksiyalı kooperativlərin perspektivliyi və onun dövlət tənzimlənməsi və dəstəyi mexanizminin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müxtəlif təsərrüfat formaları seçilmişdir. Müəssisələrin, təsərrüfat subyektlərinin müxtəlif yönümlü kooperasiya əlaqələri, sistemləri tədqiqatın predmetidir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Tədqiqatın nəzəri və metodoloji bazasını kənd təsərrüfatının bu və ya digər problemlərinə dair yerli və xarici alimlərin əsərləri, Azərbaycan Respublikasının mövcud qanunları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları və digər normativ hüquqi aktlar təşkil edir. Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair problemi araşdırarkən müşahidə, müqayisə, iqtisadi-statistik təhlil, sistemli təhlil və proqnozlaşdırma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin informasiya bazasını Azərbaycan Dövlət Statistika Komitəsinin, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Beynəlxalq Kooperasiya Alyansının faktiki materiallarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardır:**

– bazar iqtisadiyyatı şəraitində kooperasiyanın müxtəlif forma və növlərinin nəzəri əsasları inkişaf etdirilib;

– çoxukladlı iqtisadiyyatın formalaşması şəraitində kənd təsərrüfatında və ona xidmət edən sahələrdə kooperasiyanın inkişafının nəzəri və metodoloji əsasları dəqiqləşdirilib;

– kənd təsərrüfatının inkişafında kooperasiyası münasibətlərinin yaranmasının zəruriliyi elmi cəhətdən əsaslandırılıb;

– Kənd təsərrüfatı istehsal kooperativlərinin onların ixtisaslaşma və müstəqillik dərəcəsi nəzərə alınaraq təsnifatı verilib;

– istehsal və istehlak kooperasiyalarının xüsusiyyətləri nəzərə alınaraq kənd təsərrüfatında kooperasiyasının sosial - iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin metodiki tərəfləri işlənib hazırlanıb;

– istehsal və istehlak kooperativlərinin, onun formalaşmasının mexanizm və prinsiplərinin əsas inkişaf istiqamətləri əsaslandırılıb;

– üfüqi və horizontal kooperasiya şəraitində xarici təsirlər və daxili ehtiyatlar nəzərə alınmaqla iqtisadi münasibətlərin təkmilləşdirilməsi mexanizmi hazırlanıb;

– kənd təsərrüfatı kooperasiyasında idarəetmə sisteminin təkmilləşməsinin əsas istiqamətləri müəyyən edilib, istehsal və istehlak kooperativlərinin və çoxfunksiyalı kooperativlərin funksiyaları dəqiqləşdirilib.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işində respublikamızda kooperasiya münasibətlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin təkmilləşdirilməsində istifadə oluna bilər.

Kooperasiya münasibətlərinin inkişafı istiqamətində aparılan tədqiqat zamanı hazırlanan təklif və tövsiyələr kooperasiya münasibətlərinin təzahürü olan kooperativlərin inkişafı üçün pilot layihələrin hazırlanmasında da istifadə oluna bilər.

**Aprobasiya və nəticələrin tətbiqi.** Dissertasiya işində əsaslandırılmış nəzəri müddəalar və tədqiqatın nəticələri 2014-2017-ci illərdə beynəlxalq və ümumrespublika səviyyəsində keçirilmiş konfrans və seminarlarda məruzə olunmuş və müzakirə edilmişdir. Eyni zamanda, dissertasiya işi ilə bağlı elmi məqalələr müxtəlif elmi nəşrlərdə dərc olunmuşdur.

Dissertasiyanın əsas nəticələri, təklif və tövsiyələr Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi tərəfindən yerinə yetirilən tədqiqat işlərində və aidiyyatı tədbirlərin həyata keçirilməsində istifadə üçün qəbul edilmişdir. (Arayış № 31/15-294. 19 may 2017-ci il )

**Dissertasiya işinin strukturu.** Elmi-tədqiqat işi giriş, üç fəsil, nəticə və 101 adda istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla 154 səhifə təşkil edir. İşdə 16 cədvəl və 2 şəkil verilmişdir.

## MÜNDƏRİCAT

**GİRİŞ**..................................................................................................................................3

**FƏSİL I. KƏND TƏSƏRRÜFATI İSTEHSALINDA KOOPERASİYANINNƏZƏRİ – METODOLOJİ ƏSASLARI.......................................................................................................9**
**1.1**Kooperasiya münasibətlərinin nəzəri-metodoloji əsasları və xarakterik xüsusiyyərləri.........................................................................................................9
**1.2** Kooperasiya forma və növlərinin inkişafının sosial-iqtisadi əhəmiyyəti...........................21
**1.3**Kənd təsərrüfatının milli iqtisadiyyatda yeri və kooperasiya-inteqrasiya prosesləri aqrar sahənin davamlı inkişaf amili kimi.........................................................................................33
**FƏSİL II. KƏND TƏSƏRRÜFATINDA KOOPERASİYA MÜNASİBƏTLƏRİNİN İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ.........................................................................................58**
**2.1**Kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişafının mövcud vəziyyətinin təhlili...................................................................................................58
**2.2**Maddi - texniki resurs təminatı və torpaqların meliorativ vəziyyətinin qiymətləndirilməsi.......................................................................................77
**2.3** Kənd təsərrüfatı kooperasiya sahəsində dünya təcrübəsinin öyrənilməsi...................................................................................................................96
**FƏSİL III. KƏND TƏSƏRRÜFATINDA KOOPERASİYA MÜNASİBƏTLƏRİNİN PERSPEKTİV İNKİŞAFI..................................................................111**
**3.1**Kooperasiya münasibətlərinin inkişafında dövlət dəstəyinin təkmilləşdirilməsi istiqamətləri.........................................................................111
**3.2**Kənd təsərrüfatı istehsal və istehlak kooperativlərinin inkişaf istiqamətləri..................................................................................................118
**3.3**Kənd təsərrüfatında çoxfunksiyalı kooperativlərin yaradılması və inkişaf istiqamətləri........................................................................................129
**NƏTİCƏ...........................................................................................................................140**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI.......................................................................147**

## İŞİN ƏSAS MƏZMUNU

İşin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti qiymətləndirilmiş, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, nəzəri – metodoloji əsasları, informasiya bazası şərh olunmuşdur. Burada tələblərə uyğun olaraq elmi yenilik, tədqiqatın təcrübi əhəmiyyəti, onun nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi vəziyyəti xülasədə verilmişdir.

**Dissertasiya işinin "Kənd təsərrüfatı istehsalında kooperasiyanın nəzəri-metodoloji əsasları" adlanan birinci fəslində** kooperasiya münasibətlərinin nəzəri-metodoloji əsaslarına baxılmış və xarakterik xüsusiyyətləri təhlil olunmuş, kooperasiya forma və növlərinin sosial-iqtisadi əhəmiyyəti, kooperasiya-inteqrasiya münasibətlərinin inkişafının aqrar sahənin davamlı inkişafında rolu və əhəmiyyətinə aydınlıq gətirilmişdir.

Bu fəsildə kooperasiya münasibətlərinin inkişaf tarixi araşdırılaraq təhlil olunmuş və elmi - nəzəri fikirlər ətraflı öyrənilmişdir.

Kooperasiyanın vətəni Qərbi Avropa hesab olunur. Kooperasiya istilahı (termini) ilk dəfə XIX əsrin əvvəllərində İngiltərədə işlədilib. K.Marks yazırdı: "Kooperativ sisteminin toxumu ilk dəfə Robert Oyen tərəfindən səpilib".

XIX əsrin 30-cu illərində fəhlə sinfi üzərində kapitalın təzyiqi artdığı zaman "kapitalizm yarası" ilə radikal mübarizə məqsədi ilə R.Oyen "qarşılıqlı kooperasiya, əkinçi və manufaktura birliklərinin" yaradılmasını təklif edib". R.Oyen əlahiddə kommunist icması şəklində elə bir ictimai quruluş təsəvvür edirdi ki, orada mülkədar və sənaye əməyi uyğunlaşacaq, bütün yoldaşlıq əməyinin məhsulu ictimai mülkiyyəti təşkil edəcək. Onun inamına görə istehsal-istehlak kommunaları kapitalizm cəmiyyətini istismardan, yoxsulluqdan, cinayətkarlıqdan, cəhalətdən xilas etməyə qadirdir. O, ticarət fəaliyyətini cəmiyyətdə bütün iqtisadi münasibətlər sistemi birliyinin səbəbkarı hesab edir və onun aradan qaldırılması yollarını qazanc əldə etmək məqsədi güdməyən utopik kooperasiya formalarının yaradılmasında görürdü.

R.Oyenin ideyaları bir tərəfdən sosial - islahatçı, digər tərəfdən isə utopik idi. Lakin, müəllifin bu sahədə apardığı fəal təbliğat sonralar kooperasiyanın geniş yayılmasına səbəb oldu.

Kəndli kooperasiyalarını bir çox alimlər daha səmərəli istehsal forması kimi qiymətləndiriblər. Bununla belə, heç də hər bir kiçik təsərrüfat kapitalizm ictimai quruluşunda müvəffəq inkişaf edə bilmir. O, iri təsərrüfatlara sinə gərib rəqabət

aparmaq zorundadır. N.Q.Çernışevskinin fikrincə bu rəqabətə davamlılıq torpaqdan icma halında istifadə etməklə mümkün ola bilər.

Kooperasiya prosesinin təşəkkül tapmasının əsas səbəbini haqlı olaraq M.İ.Tuqan-Baranovski onun üzvlərinin yüksək sosial-iqtisadi nəticələr əldə etmələrinə maraqlı olmalarında görürdü. Qeyd edirdi ki, kəndli təsərrüfatı əvvəlki fərdi xarakterini itirir. Onun daxili təbiəti mürəkkəbləşir – məlum sahəni saxlayaraq, kəndli əvvəlki kimi öz qüvvəsi ilə təqdim olunmuş, eyni zamanda öz həmkəndlilərinə daha bağlı özünü hiss edir.

Kooperasiya yeni tipli kəndli təsərrüfatı yaradır, hansı ki, yalnız kənd təsərrüfatı əməyi fərdi fəaliyyət kimi qalır, qalan təsərrüfat əməliyyatları təkbaşına deyil kooperativin kollektiv gücü ilə aparılır.

Lakin M.İ.Tuqan-Baranovski qeyd edirdi ki, heç bir vəchlə kooperasiya kəndli təsərrüfatını uçurub dağıtmır, onu fərdilikdən kollektivliyə çevirmir. O, geniş yayılmasından, dərindən inkişaf etməsindən asılı olmayaraq kəndli təsərrüfatını zəiflədə bilməz. Əksinə kooperasiya onu möhkəmləndirməyə meyllidir.

Təsərrüfatçılığın kooperativ forması bir sıra üstünlüklərə malikdir. Birincisi kooperativləşmə zamanı birgə fəaliyyət göstərən əmtəə istehsalçılarının xərclərinə resurslara tələbatlarının azalması səbəbindən qənaət olunur. İkincisi, bazar iqtisadi münasibətləri kənd təsərrüfatı əmtəə istehsalçılarını emal müəssisələrini özlərindən asılı vəziyyətə salırlar. Belə bir vəziyyətdə kooperativ öz üzvlərini emalçıların, təchizat-satış, bank və digər strukturların inhisarçı təzyiqlərindən və digər fəaliyyətlərinə mane olan təsirlərdən qoruya bilir. Üçüncüsü, kooperativ kənd təsərrüfatı əmtəə istehsalçılarına imkan yaradır ki, təklikdə çox çətin və ya qeyri - mümkün olan istehsal - təsərrüfat fəaliyyəti ilə məşğul ola bilsinlər.

Beynəlxalq Kooperativ Alyansı (BKA) XX əsrin 30-cu illərində kooperativ hərəkatının prinsiplərini sistemləşdirdi. "Bu sistemləşmə 1844-cü ildə fəhlələri, toxucuları, çəkməçiləri birləşdirən Rodçeyl şəhərində ədalətli pioner cəmiyyətinin əsasında aparıldı. Müəyyənləşdirildi ki, Rodçeyl sisteminin əsas məzmunu aşağıdakı yeddi prinsipdən ibarətdir və bu cəmiyyətin nizamnaməsində, qaydalarında və praktiki fəaliyyətində əksini tapıb: üzvlüyün açıq olması, demokratik nəzarət, mənfəətin işçilər arasında onların işdə iştirakına əsasən bölgüsü, kapitala faizin məhdudluğu, siyasi və dini məsələlərdə bitərəflik, nağd hesablaşma, təhsilə yardım".

Hazırda beynəlxalq kooperativ qanunçuluğunun əsasını yuxarıda sadalanan prinsiplər təşkil edir. Beynəlxalq Kooperativ Alyans hər hansı bir kooperativ təşkilatında həqiqi kooperativ xarakterinin mövcudluğunu müəyyən edərkən qeyd edilən bu yeddi prinsipin hər birinin gərəkliliyinin fərqinə varılmasını lazım bilir. Bu və ya digər bir təşkilatın kooperativə aid edilməsi məsələsində ən azı ilk dörd prinsipinə əməl edilməsi zəruridir. Qalan üç prinsip Rodçeyl sisteminin mübahisəsiz tərkibi olsa da, Beynəlxalq Kooperativ Alyansına üzv olmaq üçün şərt sayılmır. Tarixi təcrübə göstərib ki, Rodçeyl qaydalarının hamısı eyni əhəmiyyət daşımır, bu prinsiplərin bir sıra ölkələrdə kooperativlərdə tətbiqi onlarda müəyyən düzəlişlərin edilməsi şərti ilə mümkün olub.

Müasir zamanda dünyada kənd təsərrüfatı kooperativlərində onun təşkilinin və fəaliyyətlərinin xüsusiyyətləri nəzərə alınmaqla BKA-nın təsdiq etdiyi prinsiplər çox vaxt saxlanılır. Bu prinsiplər Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən müdafiə olunur və BMT-nın Baş Assambleyası tərfindən bəyənilib.

Hazırda assosiasiya üzvlərinin pay haqqına əlavə dividentin ödənilməsi prinsipi daha çox kooperativə vacib olan kapitalın həcmindən asılı olaraq aparılır. Kooperativ təşkilatı yüksək faizlə kredit götürməyə qadir ola bilmədiyi halda kooperativin kreditə tələbatını ödəyə biləcək iri müəssisə kooperativ üzvü kimi çıxış edir. Bu zaman mənfəətin bölgüsü problemi meydana çıxır. Sonda kooperativin çox vacib prinsipinin pozulmasına, yəni, dividentin mənfəətdən pay kapitalının həcminə görə verilməsinə gətirib çıxardır.

Cədvəl 1.

Beynəlxalq Kooperativ Alyansının elan etdiyi kooperativ
fəaliyyətinin prinsipləri

| Prinsipin adları | Prinsipin traktovkası (izahı) |
|---|---|
| Könüllü və açıq üzvlük | Kooperativ könüllülük əsasında təşkil olunur, kim onun xidmətindən istifadə edə bilərsə, siyasi və dini inancından sosial və irqi mənsubiyyətindən, cinsindən asılı olmayaraq, kooperativə üzvlüklə bağlı öhdəlik götürməyə razı olan hər bir kəs üçün açıqdır. |
| Demokratik üzvlük nəzarəti | Kooperativ demokratik təşkilatdır, fəaliyyətində qəbul edilmiş qərarlarda və siyasətin hazılanmasında fəal iştirak etmiş üzvlər nəzarət edirlər. Seçilmiş orqanların üzvləri kooperativin üzvləri qarşısında hesabat verirlər. İlkin kooperativlərdə üzvlər bərabər səsə malikdirlər (bir üzv – bir səs). Digər səviyyəli kooperativlər də, həmçinin demokratik əsaslarla qurulur. |

| | |
|---|---|
| İqtisadi fəaliyyətdə üzvlərin iştirakı | Kooperativin kapitalının formalaşmasında üzvlər bərabər şəraitdə iştirak edirlər və onun istifadə edilməsinə demokratik nəzarət edirlər. Bir qayda olaraq onlar kooperativə üzvlük üçün şərt olan pay ödəməsindən çox da böyük olmayan (bəzən də heç almırlar), kompensasiya alırlar. Kooperativ üzvləri alınan mənfəəti qismən və ya tamamilə kooperativin inkişafına sərf edirlər, kooperativin fəaliyyətində iştiraklarına görə üzvlər arasında mütənasib bölürlər, kooperativ üzvlərinin dəstəyi ilə digər növ fəaliyyətinin həyata keçməsinə yönəldirlər. |
| Muxtariyyət və müstəqillik | Kooperativlər, üzvləri tərəfindən nəzarət olunan avtonom, müstəqil təşkilatdır. Onlar digər təşkilatlarla, hökumət strukturları da daxil olmaqla müqavilə ilə münasibət qururlar və yaxud kooperativin muxtariyyətinə, onun idarə edilməsi prinsiplərinə zidd deyilsə kənar mənbələrin vəsaitindən istifadə edə bilərlər. |
| Təhsil, təlim və informasiya | Öz üzvlərinə, seçki orqanlarının üzvlərinə, menecerlərə və əməkdaşlarına kooperativin səmərəli inkişafını təmin etmək məqsədi ilə təlim keçmək və təhsil almaq üçün imkan verir. Onlar kooperasiyanın mahiyyəti və üstünlükləri barədə ictimaiyyəti geniş məlumatlandırır. |
| Kooperativlərin əməkdaşlığı | Kooperativlər yerlərdə təşkilat çərçivəsində, həmçinin regional, ikili və beynəlxalq strukturlarla öz üzvlərinin rifahı naminə effektli fəaliyyət göstərir və kooperativ hərəkatını gücləndirirlər. |
| Cəmiyyət barədə qayğı | Kooperativlər öz üzvlərinin qayğısına qalaraq, bütövlükdə cəmiyyətin sabit inkişafına səbəb olurlar. |

Bu səbəbdən də kooperativin digər prinsiplərinin dəyişikliyi baş verir. Kooperativin assosiasiya olunmuş üzvləri kimi iri təşkilatlar qəbul olunmuş qərara müdaxilə tələbi irəli sürürlər. Nəticədə assosiasiya edilmiş üzvlərin xeyrinə idarəetmə funksiyasının yenidən bölgüsü baş verə bilər ki, bu da Beynəlxalq Kooperativlər

Alyansının qüvvədə olan klassik prinsiplərinə ziddir, belə ki, həmin assosiasiya olunmuş üzvlər kooperativdə birinci dərəcəli rola malik ola bilməzlər.

Bu məsələnin həllində, kooperativin bu və ya digər prinsiplərindən hansının doğru olması barədə hələ də mübahisələr gedir. İ.V. Zaxarov, V.P. Maslennikov, L.V. Sobolev kimi alimlər indiyədək hesab edirlər ki, “həqiqi kooperativlər yaradılması zamanı aşağıdan yuxarıyadək Rodçeyl prinsiplərinin tətbiqi zəruridir, yalnız bu prinsiplər bütün kooperativ formalarına tətbiq oluna bilər”. Nəzərimizcə, bu fikirlər bir qədər mübahisəlidir, söhbət müxtəlif dövrlərdən gedir, “zaman dəyişir, hər şey dəyişir” deyimi var. Aydındır ki, cəmiyyətimizdə çox böyük dəyişikliklər baş verib, bu dəyişikliklər nəinki kənd təsərrüfatı təşkilatlarının fəaliyyət şəraitində, hətta bazar münasibətləri prinsiplərində, kooperativ təşkilatları ilə dövlətin qarşılıqlı əlaqəsində də öz əksini tapıb. Bu dəyişiklikləri nəzərə almamaq mümkün deyil.

Bir sıra alimlər hesab edir ki, bazar iqtisadiyyatı şəraitində kooperasiya aqrar istehsalın aparıcı təsərrüfat subyektlərindən biridir. Məsələn, İ.N.Buzdalov, L. İ. Abalkin, S. İ. Qryadov V. A. Dobrının, A. V. Tkaç– düşünürlər ki, kooperasiyasız müasir kənd təsərrüfatı istehsalının inkişaf perspektivi yoxdur.

Müasir dövrdə bir çox aqrar alimlər belə hesab edirlər ki, ölkənin ərzaq təhlükəsizliyinin həlli məsələsi bilavasitə kooperativlərin təşəkkülü və onun inkişaf perspektivindən asılıdır.

Beləliklə, kənd təsərrüfatında kooperasiya münasibətləri obyektiv zərurətdən irəli gəlir və dünyada uzun inkişaf yolu keçmişdir. Müasir şəraitdə kooperasiyanın inkişaf problemlərinin həlli təsərrüfatların keyfiyyətli, məzmunca yeni demokratik əsaslarla özünüidarə formasının və hərtərəfli inkişafı üçün bərabər şəraitin təşkilini tələb edir.

Kooperativin məqsəd və vəzifələri daha çox onların iştirakçılarına və fəaliyyətin xarakterinə görə müəyyənləşdirilir. Qeyd etmək lazımdır ki, ixtisaslaşmadan və seçilmiş fəaliyyətin sferasından asılı olmayaraq bütün kooperativləri ümumi əlamət və xüsusiyyətlər səciyyələndirir. Bu əlamət və xüsusiyyətlər sayəsində ictimailəşdirilmiş, kollektiv fəaliyyət formasını müəyyən kateqoriyaya və yaxud təşkilat sinfinə aid etmək olar ki, o da, kooperativ adlanır.

Bu baxımdan təsnifatı vermək üçün ilk növbədə həmin təsərrüfat formasının

əlamətləri nəzərdən keçirilməlidir. Daha effektli kooperasiya formasını aşkar etmək üçün hər şeydən əvvəl onun sistemləşdirilməsi və təsnifatlaşdırılmasına yanaşmanın metodiki əsasları işlənib hazırlanmalıdır.

Kooperasiyanın formaları və kooperativ növlərinin sistemləşdirilməsi və təsnifatlaşdırılmasının metodoloji əsaslarını obyektiv qanunların əsas prinsip və müddəaları təşkil edir. Burada müasir bazar iqtisadiyyatının tərəqqi etdiyi dövrdə sosial - iqtisadi münasibətlərin təkmilləşdirilməsi yolunu müəyyən edən

dialektik qanunların prinsip və müddəaları əsas götürülür. Bazar münasibətlərinin inkişafı və mülkiyyət formalarının müxtəlifliyi, kooperasiyanın inkişafını şərtləndirir.

Kredit kooperasiyası kəndlilərin təşkilatlanmasının ilk mərhələsi hesab edilir. Kooperativ krediti kənddə təkcə digər kooperativlərə yardım etmə məqsədi güdmür o, həmçinin kəndliləri inhisarçılıqdan qorumaq və kənd təsərrüfatı istehsalının səmərəliliyini yüksəltmək və məhsul bolluğu yaratmaq üçün zəruridir.

Bu məqsədlə kənd kredit kooperasiyası yaradılıb və onun banisi F.V.Rayfazzen hesab olunur.

Kredit kooperasiyalarının klassik prinsipləri aşağıdakılardan ibarətdir: birliyin mənafeyinin dərk edilməsinə əsaslanaraq üzvlüyün könüllü olması; kooperativin öhdəliklərilə üzvlərinin həddindən artıq məsuliyyət daşımaları, onun kredit qabiliyyətinə inamın daim yüksəlməsi; kooperativin fəaliyyətinin bir və ya bir neçə kəndlə ciddi şəkildə məhdudlaşdırılması; təkcə bir kredit kooperativinə üzv olmaq öhdəliyi; idarəetmə orqanının təmənnasız işləməsi; kooperativin xüsusi inkişaf fondunun yaradılmasında mənfəətdən ayırmalara üstünlük verilməsi; alınmış kreditin əsasən istehsal məqsədinə xərclənməsi.

İstehlak kooperasiyası da dünyada geniş yayılmışdır. Onun yaradıcısı ingiltərəli V. Kinq sayılır. Yuxarıda qeyd etdiyimiz kimi ilk müasir tipli istehlak cəmiyyəti 1844-cü ildə İngiltərənin Rodçeyl şəhərində tikişçilər arasında yaradılıb. Rodçeyl istehlak kooperativinin prinsipləri sadədir: nağd yolla əmtəənin (malın) bazar qiymətinə alqı və satqısı; payın miqdarından asılı olmayaraq üzvlərin bərabər hüquqlu olması; mənfəətdən payın faizi çıxıldıqdan sonra mütənasib qaydada ehtiyat fonduna və hər bir üzv üçün əmlakın alınmasına çəkilən məsrəflərin ödənilməsinə bölgü; maarifləndirici məqsədlərə ayırmalar; dini və siyasi bitərəflik. Faiz ayrılmışdan sonra onun əhəmiyyətli hissəsinin bölgüsü.

Beləliklə, "istehlak cəmiyyəti - alıcılardan bütün əmtəələrlə özlərini təmin etmə və sonda nəticədə onları özlərinin istehsaletmə məqsədi ilə birliyidir".

Fəaliyyət miqyasından asılı olaraq kooperativləşmə üç istiqamətdə həyata keçirilə bilər.

Birinci istiqamət - təsərrüfat daxili sahələrin (sexlər, bölmələr, briqadalar) birləşməsi nəticəsində təsərrüfat daxili kooperativləşmə yaranır. Bu halda təsərrüfatdaxili icarə məqsədilə müqavilə tərtib olunur və şəxsi hesab açılır. Bu bölmə vəsaitin xərclənməsi üçün müstəqil qərar qəbul edir. Müstəqil təsərrüfat daxili kooperativləşmə bölməsi istehsalın səmərəliliyini yüksəldir, müəyyən iqtisadi müstəqilliyi təmin edərək əməyin son nəticəsinə marağı təmin edir.

İkinci istiqamət – müəssisənin kooperativləşməsidir. Bu forma hal - hazırda daha aktual və perspektivli hesab edilir. Əmlakın ictimailəşdirilməsi dərəcəsinə görə kooperativ tipli modellər fərqləndirilir: kollektiv təsərrüfatlar yoldaşlıq, assosiasiyalar, kooperativ təsərrüfatlar.

Üçüncü istiqamət – regional səviyyədə təsərrüfatların kooperativləşməsidir. Belə strukturlar adətən kredit və sığorta təminatını, aqrotexniki və servis xidmətlərini həyata keçirirlər.

Təsərrüfatlararası müəssisənin yaranması gedişatında, təsərrüfatlar öz müstəqilliyini qoruyub saxlayır, kiçik təsərrüfatlar özlərindən böyüyün içində yoxa çıxmır. Təsərrüfatlararası istehsal kooperasiyasında başlıca amil ondan ibarətdir ki, birgə əmək və istehsal prosesində kooperativ mülkiyyət münasibətləri təsərrüfatçılıq formasına təsir edərək kooperasiya iştirakçılarında əməyin son nəticəsinə iqtisadi marağı gücləndirir, o da öz növbəsində texnologiyanın təkmilləşdirilməsi və əmək məhsuldarlığının artımı sayəsində iqtisadi səmərəliliyi yüksəldir.

Hazırda üfüqi kooperasiyanın 3-cü inkişaf forması sayılan fermer və şəxsi təsərrüfatlarının kooperasiyalaşması böyük əhəmiyyət kəsb edir. Təcrübə sübut edir ki, müasir şəraitdə onlar yalnız birgə effektiv fəaliyyət göstərə bilərlər. Hüquqi müstəqilliklərini saxlayaraq maddi, texniki əmək və maliyyə resurslarını birləşdirirlər.

Hələlik fermer təsərrüfatları üçün yerləşmə məkanı və digər səbəblərdən zəruri baza mövcud deyil. Təəssüf ki, onlar özlərinə yaxın kənd təsərrüfatı müəssisələri ilə qeyri - bərabər əsaslarda kooperasiya əlaqələrinə girirlər. Kooperasiyanın şərtlərindən biri təsərrüfatların ölçülərindən asılı olmayaraq qarşılıqlı faydalı bərabərlikdir.

Fermer və şəxsi təsərrüfatlar üçün ən məqbul kooperasiya forması kənd təsərrüfatı istehsal kooperativləridir. Bu halda başqa kooperativlərdən fərqli olaraq torpaq sahələri kooperativin pay fonduna verilmir, həmin sahələr kooperativ iştirakçılarının xüsusi mülkiyyətində qalır (kooperativin ümumi ehtiyacları üçün nəzərdə tutulan torpaq sahələri istisna olmaqla).

Ölkəmizdə istər üfüqi, istərsə də şaquli kooperasiyanın təşəkkülü və inkişafı üçün münbit və zəruri şərtlər olsa da, hələlik öz inkişafını lazımınca tapmayıb.

Kənd təsərrüfatının inkişafı baxımından üfüqi və şaquli kooperasiyanın təşkili və inkişafı çox zəruridir. İstehsalın bu formada təşkili bir çox inkişaf etmiş ölkələrdə öz müsbət nəticəsini səmərəlilik və perspektiv baxımdan çoxdan sübut edib.

Xatırladaq ki, tədqiqatçı alim A.V.Çayanov çoxnövlü təsərrüfatçılıq formasının tərəfdarı olub, istehsalın təşkilinin kooperasiya formasına üstünlük verib, onun səmərəliliyini əsaslandıraraq inkişafın ana xətti kimi dəyərləndirib. Onun fikrincə kəndli kooperasiyaları "kiçik təsərrüfatlara" iri təsərrüfatların onların üzərində üstünlüyünü qəbul edərək öz fərdiliklərini saxlamaqlarına imkan yaradır".

Kənd təsərrüfatında da milli iqtisadiyyatın digər sahələrində olduğu kimi ümumi iqtisadi qanunlar fəaliyyət göstərir. Lakin, o qanunlar sahənin spesifik xüsusiyyətləri nəzərə alınmaqla özünü büruzə verir.

Kooperasiya-inteqrasiya əlaqələri aqrar sahənin davamlı inkişaf amili kimi aqrar böhranın yumşaldılmasını, ÜDM-də kənd təsərrüfatı məhsulunun xüsusi çəkisinin artımını, kənd təsərrüfatı bitkilərinin və heyvanlarının məhsuldarlığını, emal müəssisələrinin istehsal güclərindən səmərəli istifadəni, istehsalda yeni texnologiyanın tətbiqini, hər bir istehsal həlqəsində itkilərin azaldılmasını, kənd əməkçilərinin gəlirlərinin artımını və həyat səviyyələrinin yaxşılaşdırılmasını, kəndin sosial problemlərin aradan qaldırılmasını şərtləndirir.

**Dissertasiya işinin "Kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişafının mövcud vəziyyətinin təhlili" adlanan ikinci fəslində** kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişafının mövcud vəziyyəti araşdırılaraq təhlil edilmiş, kənd təsərrüfatının maddi-texniki resurslarla təminat səviyyəsi öyrənilmiş, istehsal resurslarından istifadə səviyyəsi təhlil olunmuş və kooperasiya münasibətlərinin inkişafında dünya təcrübəsi öyrənilərək təhlil olunmuşdur.

Kənd təsərrüfatı milli iqtisadiyyatının zəruri sahələrindən biri hesab olunur. Kənd təsərrüfatı ölkə əhalisi üçün qida məhsulları, emal sənayesi üçün xammal istehsal etməklə, cəmiyyətin digər ehtiyaclarını ödəyir. Cəmiyyət üzvlərinin maddi rifahı və həyat səviyyəsi xeyli dərəcədə kənd təsərrüfatının inkişafından asılıdır. Qidalanmanın quruluşu, həcmi, adambaşına düşən gəlir, xidmət və əmtəə istehlakı, sosial həyat şəraiti və s. məsələlər kənd təsərrüfatının vəziyyəti ilə bağlıdır.

Kənd təsərrüfatı traktor, kombayn, yük avtomobilləri, yanacaq-sürtgü materialları, mineral gübrələr kimi bir sıra maddi-texniki resursların əsas istehlakçısıdır.

Respublika əhalisinin 2016-cı ilin statistik məlumatına görə 47,0 faizi – 4611,0 min nəfəri kənd yerlərində yaşayır, iqtisadi fəaliyyətlə məşğul olan əhalinin 36,3 %-i kənd təsərrüfatında çalışır.

2016-cı ilin məlumatına görə hazırda 1719 kənd təsərrüfatı və xidmət təşkilatları mövcuddur ki, onlardan 1249-u kənd təsərrüfatı müəssisələri, 158-i dövlət müəssisələri, 1-i kolxoz, 55-i hüquqi şəxs statuslu kənd təsərrüfatı kooperativi, 1035-i digər özəl, 470-i xidmət təşkilatları, 1468-i fərdi sahibkardır.

Kənd təsərrüfatının ümumi məhsulu hər il artaraq faktiki qiymətlərlə 1997-ci ildəki 824,5 milyon manatdan 2007-ci ildə 2765,0 milyon manata, 2014-cü ildə isə

5225,8 milyon manata, 2016-cı ildə isə 5632,4 milyon manata yüksəlmişdir. 2016-cı ildə istehsal edilmiş ümumi kənd təsərrüfatı məhsulunun 2577,2 milyon manatı bitkiçilik, 3055,2 milyon manatı isə heyvandarlıq sahələrinin payına düşür.

Bununla belə kənd təsərrüfatında struktur islahatlarının həyata keçirilməsini sürətləndirmək, bitkiçilik və heyvandarlıq məhsulları istehsalını və onların əmtəəlik səviyyəsini, rəqabət qabiliyyətini və ixrac potensialını artırmaq, kənd təsərrüfatının maddi-texniki bazasını möhkəmləndirmək üçün dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilsə də aqrar sahənin, o cümlədən kənd təsərrüfatının inkişaf səviyyəsi hələlik arzu olunan səviyyədə deyildir. Əldə olunan faktiki məhsuldarlıq potensial məhsuldarlıqdan xeyli aşağıdır. Yeni iqtisadi şəraitdə torpaq mülkiyyətçiləri az əmək və material tutumlu sahələrin inkişaf etdirilməsinə üstünlük verirlər. Məhsul istehsalçıları traktor, kombayn və digər kənd təsərrüfatı texnikası, mineral gübrələr, bitki mühafizəsi preparatları, suvarma suyu, enerji daşıyıcıları ilə təmin edilməsində problemlərlə üzləşirlər. Kənd təsərrüfatına kompleks xidmət göstərilməsi üçün zəruri olan infrastruktur zəifdir. Respublikanın iqtisadi rayonlarında "nə istehsal etməli", "necə istehsal etmək" və "kimin üçün istehsal etməli" kimi mühüm məsələlər hələ də müsbət həllini tapmamışdır. Ölkənin kənd təsərrüfatı çoxsahəlidir. İqlim şəraiti müxtəlif məhsullar yetişdirməyə imkan verir.

Hələ keçən əsrin 30-cu illərində iqtisadçı alim A.V.Çayanov yazırdı ki, təkcə torpağı kəndliyə verməklə iş bitmir. Torpağı becərmək üçün kəndlinin bir çox şeylərə ehtiyacı var. Bu günkü reallıq bunu bir daha sübut edir.80-ci illərdə başlanan daxili təsərrüfat hesabı, naryadsız əmək haqqı sistemi (briqada podratı) və bunlara bənzər digər kampaniyalar kənd əməkçilərində sahibkarlıq hissi yarada bilmədi. Bir təsərrüfat daxilində tətbiq edilən həmin sistemlər müəyyən müsbət nəticələr versə də istehsalçıların tam sərbəstliyini təmin etmədi. İndi kəndlinin torpağı var, o azad sahibkardır, lakin, əkib becərmək üçün isə onun maddi imkanları məhduddur. Mövcud təsərrüfat sahiblərinin demək olar ki, hamısı torpağın əkinə hazırlanması işlərindən başlamış hazır məhsulun realizə olunmasınadək bir sıra ciddi problemlərlə üzləşməli olurlar. Bütün bunların nəticəsidir ki, son illər bitkiçiliyin əkin strukturunda bir sıra neqativ hallar baş vermişdir. 1988-ci ildə 1562,2 min hektar əkin yerindən 1467,8 min hektar (94,0 %) istifadə olunmuşdursa, 1995-ci ildə 1623 min hektarın 1207,1 min

hektarından (74,4 %), 2000-ci ildə 1766,8 min hektarın 1041,5 min hektarından (58,4 %), 2014 - cü ildə 1886 min hektarın 1614 min hektarından (85,6 %), 2016-cı ildə isə 1959,0 min hektarın 1628,3 min hektarından (83,1%) istifadə olunmuşdur.

Əhalinin mühüm qida məhsullarına və sənayenin xammala olan tələbatının ödənilməsi bilavasitə əkin sahələrindən istifadə səviyyəsindən asılıdır. Cəmi əkin sahəsinin tərkibində dənli və dənli paxlalı bitkilər əkininin xüsusi çəkisi yüksəkdir. 1988-ci ildə dənli və dənli paxlalılar üzrə əkin sahəsi ümumi əkinin sahənin (1467,8 min hektar) 33,1% - ni (485,7 min hektar) təşkil edirdisə 1995-ci ildə 50,5% (609,4 min hektar), 2000 - ci ildə 62,2% (648,2 min hektar), 2005-ci ildə 60,4% (802,3 min hektar), 2014 - cü ildə 62,0% (1001,4 min hektar), 2016-cı ildə isə 61,3% (997,5 min hektar) təşkil etmişdir. Əkilmiş sahə də həmçinin 1988-2016 - cı illərdə 160,5 min hektar artaraq 1467,8 min hektardan 1628,3 min hektara qalxmışdır. Cədvəl 2 - dən göründüyü kimi əkin sahələrinin strukturunda baş vermiş dəyişikliklərin əsasını texniki və yem bitkilərinin əkin sahələrinin azaldılması hesabına taxıl, kartof, tərəvəz və bostan bitkilərinin əkin sahələrinin genişləndirilməsi təşkil edir.

Cədvəl 2.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalının dinamikası

(min ton)

| | 1988 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 1988-ci ilə nisbətən 2016-cə ildə%-lə |
|---|---|---|---|---|---|---|---|
| Dənli və dənli paxlalılar | 1325,4 | 2802,2 | 2955,3 | 2383,3 | 2999,4 | 3065,1 | 2,3 dəfə |
| Pambıq | 616,1 | 57,0 | 45,2 | 41,0 | 35,2 | 89,4 | -6,9 dəfə |
| Tütün | 57,8 | 4,3 | 3,5 | 2,9 | 3,5 | 3,6 | -16,1 dəfə |
| Kartof | 165,1 | 968,5 | 992,8 | 819,3 | 839,8 | 902,4 | 5,5 dəfə |
| Tərəvəz | 820 | 1216,2 | 1236,3 | 1187,7 | 1275,3 | 1270,6 | 154,9 |
| Bostan | 41,6 | 428,0 | 429,8 | 440,9 | 484,5 | 464,8 | 11,2 dəfə |
| Üzüm | 1249 | 151,0 | 148,5 | 147,7 | 157,1 | 136,5 | 9,2 dəfə |
| Yaşıl çay yarpağı | 34,5 | 0,57 | 0,57 | 0,47 | 0,58 | 1,02 | -33,8 |
| Şəkər çuğunduru | - | 19,7 | 17,7 | 19,8 | 18,4 | 16,7 | - |
| Ət kəsilmiş çəkidə | 171,3 | 276,0 | 286,9 | 291,2 | 298,6 | 302,2 | 176,4 |
| Süd | 1067 | 1695,6 | 1796,7 | 1855,8 | 1924,5 | 2009,9 | 188,4 |
| Yun (fiziki çəkidə) | 11,7 | 16,2 | 16,5 | 16,8 | 17,0 | 16,7 | 142,7 |
| Yumurta (mln ədəd) | 1076,7 | 1226,7 | 1401,5 | 1562,7 | 1552,9 | 1609,8 | 149,5 |

Mənbə: Kənd təsərrüfatının statistikası, DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Bakı-2017

Texniki bitkilərin əkin sahəsi 1988 - ci illə müqayisədə (320,8 min hektar) 247,2 min hektar azalaraq 2016 - cı ildə cəmi 73,6 min hektar olmuşdur. Çoxillik əkmələrin də sahəsi son illər xeyli azalmışdır.

1988 - ci illə müqayisədə 2016-cı ildə meyvə bağları 11,2 min hektar artaraq 171,6 min hektar, üzümlüklər isə 17,6 dəfə azalaraq 16,0 min hektar, çay plantasiyaları 13,2 dəfə azalaraq 1,0 min hektar təşkil etmişdir.

Heyvandarlığın inkişafı üçün zəruri olan yem bitkiləri sahələri də xeyli azalmışdır. 1984-cü ildən sonra yem bitkilərinin əkin sahəsi 120,2 min ha azalaraq 2016-cı ildə cəmisi 1,6 min ha təşkil etmişdir.

Aqrar - sənaye kompleksinə lazımi səviyyədə diqqət ayrılmaması aqrar siyasətdə əhalinin daxili istehsal hesabına kifayət qədər ərzaq məhsulları ilə təmin edilməməsi və ölkənin ərzaq təhlükəsizliyinin nəzərə alınmaması, digər həllini gözləyən məsələlərin çoxluğu son nəticədə tələb olunan miqdarda məhsul istehsalına imkan vermədiyi kimi, iqtisadiyyatı xarici xammal və hazır məhsuldan asılılığa gətirib çıxartdı.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair (2004 - 2008 - ci illər) Dövlət Proqramının və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı"na dair Dövlət Proqramının qəbul edilməsi kənd təsərrüfatının inkişafına münbit şərait yaratmışdır.

2016 - cı ildə texniki bitkilər olan pambıq, tütün, üzüm, eləcə də çay yarpağı istisna olmaqla 2000 - ci ilə nisbətdə dənli və dənli paxlalılar 2,0 dəfə, kartof 1,9 dəfə, tərəvəz 1,6 dəfə, bostan məhsulları 1,8 dəfə, meyvə 1,8 dəfə, süd və ət kəsilmiş çəkidə 1,9 dəfə, fiziki çəkidə yun 1,4 dəfə, yumurta 1,5 dəfə çox istehsal edilmişdir.

Əhalinin həyat səviyyəsi xeyli dərəcədə aqrar - sənaye kompleksinin, xüsusilə yeyinti və emal sənayesinin vəziyyətindən, inkişaf tempindən asılıdır. Bazar iqtisadi münasibətlərinə keçid dövründə iqtisadiyyatın üzləşdiyi dərin böhran yeyinti və emal sənayesində məhsul istehsalı azalmışdır

Bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının aşağı düşməsi istehsalçılarda məhsullarını emal müəssisələrinə vermək üçün marağın olmaması, dövriyyə vəsaitlərinin çatışmaması, işlək maliyyə - kredit sisteminin olmaması, müəssisələrin hazır məhsullarını sata bilməmələri kimi səbəblər sahənin tənəzzülünə gətirib çıxarmışdı.

Müasir dövrdə dövlətin aqrar siyasətinin əsas məqsədi sahibkarlığı inkişaf etdirmək yolu ilə ölkə əhalisinin ərzaq məhsullarına tələbatını mümkün qədər daxili istehsal hesabına, sənayeni isə kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün etibarlı aqrar bazar yaratmağa və eyni zamanda ixracyönümlü məhsul istehsal etməyə yönəlməlidir. Əhalinin ərzaqla təminatının 70 - 80 %-i daxili istehsal hesabına ödənilən ölkələrin aqrar siyasət və aqrar bazarı etibarlı hesab olunur. Taxıl məhsulları (buğda, arpa, qarğıdalı, çəltik, paxlalı bitkilər), pambıq, kartof, meyvə, tərəvəz, üzüm, bitki yağı, çay, limon, portağal, ət və ət məhsulları, yumurta, balıq və balıq məhsulları və s. bazarın əsas əmtəələri olub, ölkənin aqrar bazarını, o cümlədən ərzaq bazarını formalaşdırır. Digər ölkələrdə olduğu kimi Azərbaycanda da daxili istehsal ölkənin aqrar bazarının formalaşdırılmasının əsasını təşkil edir.

Cədvəl 3.

Ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi və idxaldan asılılıq (faizlə)

| **Məhsullar / İllər** | | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2012-ci ilə nisbətən 2016-cı ildə artma+ azalma-** |
|---|---|---|---|---|---|---|---|
| **Taxıl** | özünütəminetmə | 64,3 | 63,9 | 60,6 | 64,5 | 63,8 | -0,5 |
| | idxaldan asılılıq | 35,7 | 36,1 | 39,4 | 35,5 | 36,2 | +0,5 |
| **Kartof** | özünütəminetmə | 98,2 | 97,6 | 89,7 | 89,1 | 85,5 | -12,7 |
| | idxaldan asılılıq | 7,8 | 7,7 | 15,7 | 14,8 | 14,5 | +6,7 |
| **Tərəvəz** | özünütəminetmə | 98,9 | 102,3 | 103,4 | 103,4 | 105,4 | +6,5 |
| | idxaldan asılılıq | 5,7 | 3,1 | 3,4 | 3,4 | 5,1 | -0,6 |
| **Bostan** | özünütəminetmə | 100,1 | 100 | 100,4 | 100 | 100,2 | +0,1 |
| | idxaldan asılılıq | - | - | - | - | - | - |
| **Meyvə və giləmeyvə** | özünütəminetmə | 125,7 | 121,8 | 120,1 | 113,7 | 116,4 | -9,3 |
| | idxaldan asılılıq | 10,1 | 4,9 | 3,6 | 9,6 | 12,3 | +2,2 |
| **Ət və ət məhsulları** | özünütəminetmə | 91,8 | 92,4 | 92,4 | 94,7 | 87,9 | -3,9 |
| | idxaldan asılılıq | 8,8 | 8,1 | 8,1 | 5,6 | 12,1 | +3,3 |
| **Süd və süd məhsulları** | özünütəminetmə | 72,5 | 76 | 76,3 | 84,3 | 87,7 | +15,2 |
| | idxaldan asılılıq | 27,5 | 24,3 | 23,9 | 16 | 12,6 | -14,9 |
| **Yumurta** | özünütəminetmə | 96,2 | 100 | 99,7 | 99,7 | 98,8 | +2,6 |
| | idxaldan asılılıq | 4,2 | 0,1 | 0,3 | 0,3 | 1,2 | -3,0 |
| **Balıq və balıq məhsulları** | özünütəminetmə | 74,7 | 71,7 | 72,8 | 77,6 | 82,3 | +7,6 |
| | idxaldan asılılıq | 25,3 | 28,4 | 27,2 | 22,4 | 17,7 | -7,6 |

Mənbə: Cədvəl http://www.stat.gov.az/source/agriculture/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Araşdırmalar göstərir ki, 2016 - cı ildə özünü təminetmə səviyyəsi bütün növ tərəvəzlə 105,4 %, bostan məhsulları ilə 100,2 %, meyvə və giləmeyvə ilə 116,4%, kartofla 85,5 %, üzümlə 89,2 %, bütün növ mal - qara və quş əti ilə 87,9 %, süd və süd məhsulları ilə 87,7 %, yumurta ilə 98,8% təşkil edib. Bəzi məhsullar üzrə özünü təminat səviyyəsi yüksək olmasına baxmayaraq mövsüm ərzində onlar əsasən ixrac olunur. Qış mövsümündə isə həmin məhsullar üzrə daxili tələbatı ödəmək üçün idxal olunması zərurəti yaranır ki, bu da ticarət qaydalarına uyğundur. Lakin onu da qeyd edək ki, istehlak olunan ərzaq məhsullarının həcmi inkişaf etmiş xarici ölkələrdə olduğundan hələ də geri qalır.

Respublikada iqtisadiyyatın sağlamlaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər sayəsində kənd təsərrüfatında uğurlar əldə edilsə də, həyati əhəmiyyət daşıyan bir sıra ərzaq məhsullarının, o cümlədən heyvandarlıq məhsullarının istehlakı rasional normadan və xarici ölkələrdəki istehlakdan xeyli geri qalır. Müqayisə apardığımız ölkələr içərisində adambaşına ən çox çörək və çörək məmulatları istehlak edən ölkə Azərbaycandır. Ət və ət məhsulları istehlakı ABŞ - dakından 5,3 dəfə, Almaniyadan 3,9 dəfə, Fransadan 4,1 dəfə geri qalır. Hətta Rusiya və Ukraynadan müvafiq olaraq 2 və 1,5 dəfə geri qalırıq. Süd və süd məhsulları ilə istehlakın səviyyəsi də müqayisə etdiyimiz dövlətlərin hamısından aşağıdır. Quşçuluq sənayesi son zamanlar xeyli inkişaf etsə də yumurta istehlakına görə müqayisədə ən yaxşı halda Ukraynadan 1,7 dəfə Fransadan isə 2,8 dəfə geri qalırıq. Şəkərin, bitki yağının, balıq və balıq məhsullarının istehlakı da aşağı olmuşdur.

Əhalinin istehlak etdiyi məhsulların qidalılıq balansı pozulmuşdur. Bunun səbəbi bir tərəfdən kənd təsərrüfatı məhsullarının istehsalının azalması ilə bağlıdırsa, digər tərəfdən əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi də az rol oynamır. O səbəbdən də əhalinin bir qismi nisbətən ucuz və keyfiyyətsiz məhsulların alınmasına meylli olmuşdur.

Cədvəl 4.

Azərbaycan və xarici ölkələrdə il ərzində orta hesabla bir nəfərə qida məhsulu istehlakı, kq

| | Azər-baycan | ABŞ | Belarus | Qazax - stan | Moldova | Rusiya | Ukrayna |
|---|---|---|---|---|---|---|---|
| | 2016* | 2014 | 2015 | 2015 | 2015 | 2015 | 2015 |
| Çörək və çörək məhsulları | 138.3 | - | 86 | 123 | 101 | 118 | 103 |
| Kartof | 72,3 | 56 | 170 | 111 | 54 | 112 | 138 |
| Tərəvəz və Bostan məhsulları (təzə halda) | 106,6 | 113 | 145 | 207 | 92 | 111 | 161 |
| Meyvə və giləmeyvə (təzə halda) | 78,2 | 99 | 79 | 64 | 62 | 61 | 51 |
| Ət və ət məhsulları (piy və içalatı daxil etmədən) | 33,5 | 118 | 89 | 69 | 43 | 73 | 51 |
| Süd və süd məhsulları | 270,7 | 276 | 254 | 237 | 159 | 239 | 210 |
| Yumurta | 158 | 263 | 288 | 236 | 160 | 269 | 280 |

Cədvəl Azərbaycan Statistik Göstəriciləri, Bakı-2017, Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əhalinin istehlak xərclərinin tərkibində ərzaq məhsullarına sərfiyyat 90-cı illərdən artmaqda davam edir. 1990-cı ildə istehlak xərclərinin tərkibində qida məhsullarına sərfiyyat 53,4 % təşkil edirdisə, 1995-ci ildə 78,6 %, 1996-cı ilə 76,1 %, 1997-ci ildə 77,6 %, 1998-ci ildə 77,1 %, 1999-cu ildə 72,2 %, 2000-ci ildə 66,3 %, 2014-cü ildə isə 68,3 %, 2016-cı ildə 40,5% həddində olmuşdur.

Ölkənin aqro-ərzaq siyasətinin strateji məqsədlərini şərti olaraq üç sahəyə bölmək olar: iqtisadi, sosial və ekoloji.

- iqtisadi sahə - əhalinin qida məhsullarına olan tələbatını, yeyinti və emal sənayesinin, həmçinin, ixracatın kənd təsərrüfatı xammalına və hazır məhsula tələbatını ödəyə bilən effektli aqrar-sənaye istehsalının təmin edilməsi;
- sosial sahə - kənd və şəhər əhalisinin sosial təminat və həyat səviyyələri arasındakı fərqin ləğv edilməsi, kənd əhalisinin özlərini təmin etmələri dərəcəsində kəndi inkişaf etdirmək;
- ekoloji sahə - ekoloji baxımdan təmiz qida məhsullarının istehsalı, əhalinin təhlükəsiz ömür sürməsi, bitki və heyvanat aləminin qorunub saxlanması üçün münbit şəraitin yaradılması kimi məsələləri özündə ehtiva edir.

Dünya ölkələri üçün xarakterik olan bir problem – kənd təsərrüfatında istifadəsi zəruri olan sənaye məhsullarının qiymət artımının kənd təsərrüfatı məhsullarının qiymət artımını üstələməsi ölkəmizdə daha qabarıq şəkildə özünü büruzə vermişdir. Ölkəyə gətirilən mineral gübrələrin, dərman preparatlarının həcmində, istifadəsində də ciddi azalmalar müşahidə olunmuşdur. Texniki vasitələrin çatışmazlığı səbəbindən aqrotexniki tədbirlər vaxtında aparılmır, hər il təkcə bitkiçilik sahəsində 30 - 40 milyon manatlıq məhsul itkisinə yol verilir. Ölkənin maşın-traktor parkının yeniləşməsinin ləngliyinə görə kənd təsərrüfatının texnika ilə təminatı aşağı düşür. 1000 hektar əkin sahəsinə düşən traktorların müvafiq bitkilərin əkin sahələrinə düşən

kombaynların sayı ilbəil azalmış, təbii olaraq, traktor və kombaynlara düşən müvafiq əkin sahələrinin miqdarı isə artmışdır. Belə ki, əgər 1990-cı ildə 1000 ha əkin sahəsinə 26,7 traktor və 1 traktora 39 ha əkin sahəsi düşürdüsə, 2013-cü ildə 13,9 traktor və bir traktora 72 hektar əkin sahəsi, 2016-cı ildə isə 10,5 traktor və bir traktora 96 hektar əkin sahəsi düşmüşdür.

Hazırda mövcud texnikanın sazlıq səviyyəsi aşağıdakı kimidir: tırtıllı traktorlar – 34,7 %, təkərli traktorlar – 55,1 %, taxılyığan kombayn – 37,4 %, traktor yedəyi – 50,2 %, asma və qoşulan digər texnikalar – 39,0 %. Digər bir problem mövcud texnikanın istismar müddətinin normativ həddi bir neçə dəfə üstələməsi ilə bağlıdır.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin baş dövlət texniki nəzarət müfəttişliyinin məlumatları əsasında aparılan hesablamalar göstərir ki, regionlarda kənd təsərrüfatı texnikası ilə təminatda çoxlu problemlər var və 2014-cü illə müqayisədə 2016-cı ildə texnikaların növlər üzrə sazlıq səviyyəsi 2,8%-dən

27,1%-ə qədər aşağı düşmüşdür. Qeyd edək ki, devalivasiyaya qədər kənd təsərrüfatı sahələrinin texnika ilə təminatı tələb olunan vəsait cədvəl 2.8-də hesablanaraq verilmişdir. Bu vəsait indiki məzənnə ilə müvafiq qaydada 2,3 dəfə artmışdır.

Hesablamalara əsasən hər hektar taxıl sahəsinə 250 kq azot, 350 kq fosfor, 100 kq kalium gübrəsi, pambığın hər hektarına 300 kq azot, 400 kq fosfor, 100 kq kalium; tütünə 180 kq azot, 400 kq fosfor, 100 kq kalium; kartofa 200 kq azot, 350 kq fosfor, 150 kq kalium; tərəvəzə 100 kq azot, 300 kq fosfor, 100 kq kalium gübrəsi tələb olunur. Bu hesabla cəmi əkin sahəsinə veriləcək mineral gübrənin miqdarından idxal olunan mineral gübrənin miqdarı dəfələrlə azdır. Məlumdur ki, gübrələr məhsuldarlığı artırmaqla bərabər torpağın geniş təkrar istehsala yararlılığını da təmin edir. Məsələn, 2014-cü ildə əkin sahəsinə müvafiq olaraq azot gübrəsi 344 min ton, fosfor gübrəsi 561 min ton, kalium gübrəsi 100 min ton tələb olunmuşdur. Tələb olunan mineral gübrələrin fiziki çəkisi 1106 min ton olduğundan tələbatın təqribən 14,0% -nin ödənildiyini söyləmək olar. 2016-cı ildə ölkəyə gübrə gətirilməsi əvvəlki illərlə müqayisədə 2 dəfədən çox olmuşdur və gübrələnmiş sahənin ümumi əkində xüsusi çəkisi 70% təşkil etmişdir.

Respublika ərazisində torpaqların ekoloji - meliorativ vəziyyəti ilə yanaşı kənd təsərrüfatı məhsullarının istehsalında ölkənin su ehtiyatları və onların bölgələr üzrə yayılması da mühüm rol oynayır.

Azərbaycanın su ehtiyatları məhdud olub, Cənubi Qafqazın ümumi su ehtiyatlarının cəmi 15 %-ni təşkil edir. Ərazi və adambaşına düşən su ehtiyatları Gürcüstandan müvafiq olaraq 7,7 və 8,3 dəfə, Ermənistandan isə 2,2 və 1,7 dəfə dəfə azdır. Su təminatına görə respublikamız ən az təmin olunan regionlardan sayılır və təxminən 1 $km^2$-ə 100000 $m^3$ su, adambaşına isə il ərzində 950-1000 $m^3$ su düşür. Respublikanın ümumi su ehtiyatları 28,5-32,3 $km^3$ arasında dəyişməklə, mülayim və quraq illərdə daha da azalaraq müvafiq olaraq 27,0 və 22,6 $km^3$ təşkil edir. Respublikada su ehtiyatları qeyri bərabər paylanmışdır.

Azərbaycan Respublikasında 140-dan çox su anbarı vardır və bunlardan əksəriyyəti suvarma məqsədilə yaradılmışdır. Kür çayı üzərində Mingəçevir, Şəmkir, Yenikənd, Varvara, Araz çayı üzərindəki "Araz" su qovşağı, Tərtər çayı üzərində Sərsəng su anbarlarından eyni zamanda enerji istehsal edilir. Ceyranbatan su anbarının isə Bakı və Sumqayıt şəhərlərinin su ilə təchizatında xüsusi əhəmiyyəti vardır. Ceyranbatan su anbarı əsasən Samur çayının suyu hesabına Samur-Abşeron kanalı vasitəsilə doldurulur. Samur çayından götürülən suyun həcmi 0,80-0,85 $km^3$ təşkil edir. Respublikada istismar edilən su anbarlarının ümumi sahələri 877,1 $km^2$-dir.

Respublikanın yeraltı suları yüksək keyfiyyətli olub, əsasən, kənd təsərrüfatında və məişətdə geniş istifadə olunur. Gəncə-Qazax və Qarabağ-Mil artezian hövzələrinin yeraltı sularından bu bölgələrin rayonlarında əsasən suvarmaya sərf edilir. Yeraltı sular Azərbaycanın su ilə təmin olunmasında əhəmiyyətli rol oynayır.

Kooperasiya münasibətlərinin inkişafının təzahürü olan kooperativ sistemləri dünyanın inkişaf etmiş ölkələrində geniş yayılmışdır. Tədqiqat işində inkişaf etmiş ölkələrin təcrübəsindən nümunələr göstərməyi məqsədəuyğun hesab etmişik. Qeyd edək ki, ABŞ-nın kooperativlərin inkişaf təcrübəsi geniş və əhatəlidir. Bu təcrübənin öyrənilib, ölkəmizdə tətbiq edilməsi iqtisadiyyatın inkişafına kömək etmiş olar.

Dövlətin dəstəyi və kooperasiyanın rolu sayəsində istehsalın təmərküzləşməsi, iri kapitalın rolunun güclənməsi ilə bərabər texniki - texnoloji strukturlarda tərəqqi baş verir və aqrar müəssisələrin inkişafı üçün yeni münbit şərait yaranır.

İkinci dünya müharibəsindən sonra aqrar sahədə bazar münasibətlərinin onun inkişaf mərhələsi başlayıb.

ABŞ - da fermer kooperasiyasının inkişafı üç mərhələyə bölünür.

Birinci mərhələ – XX əsrin əvvəllərinə qədər olan dövrdür ki, bu da xırda fermer kooperativlərinin meydana gəlməsi ilə xarakterizə olunur, 60 – 70 - ci illərdən etibarən isə kooperativlərin və üzvlərinin sayı sürətlə artmağa başlayır.

XIX əsrin əvvəllərində ABŞ-ın kənd təsərrüfatında iyirmi - otuz fermer məhsullarını müştərək satmaq üçün kooperativ qrup halında hüquqi status almadan qeyri - rəsmi birləşiblər. Onların kənd təsərrüfatı istehsalına təsirləri çox cüzi olub.

1867 - cildə "Milli fermer assosiasiyası"nın yaradılması dövründən keçən əsrin (XX) başlanğıcınadək ABŞ-da kənd təsərrüfatı kooperasiyası sürətlə inkişaf etməyə başlayıb.

İkinci mərhələ - XX əsrin əvvəllərindən İkinci dünya müharibəsinədək olan dövrdür. Bu dövrdə təmərküzləşmə və kooperativ sisteminin funksional diversifikasiyası güclənir və kooperativ sonrakı inkişafı üçün hüquqi əsasa malik olub. 1908-ci ildə hökumət fermerləri kooperativ hərəkatına cəlb etmək üçün xüsusi komissiya yaradıb.

Amerikanın fermer kooperasiya sistemində satış kooperasiya öncül yer tutur. Axırıncı onillikdə satış kooperasiyalarının funksiyaları xeyli genişlənib. Hazırda onların vasitəsi ilə təkcə məhsulun satışı deyil, həmçinin qəbulu, məhsulun emalı, anbara yığma, saxlama, qablaşdırma və nəqletmə də daxildir. Bunlardan başqa, satış kooperativləri kənd təsərrüfatı məhsullarının böyük bir qisminin emalını təmin edirlər. Bu baxımdan kooperativlər getdikcə daha çox sənaye kompaniyası yönündə dəyişməklə, yenə də əvvəlki funksiyalarını da yerinə yetirirlər.

Bu kooperativlər öz məhsullarını həm daxili, həm də xarici bazarlarda satmaqla, digər ölkələrdə özlərinin ticarət nümayəndəliklərini yaradırlar. İri fermer kooperativlərinin məhsul ixracı daim artır. Məsələn "Sankist Qrouzers" kooperativi (Kaliforniya və Arizona" ştatının bütün sitrus meyvəsi becərənlərinin 80 %-ni birləşdirir) daim məhsulunun ixracını artırır. Hazırda həmin kooperativ ABŞ-da istehsal olunan təzə meyvələrin 25 %-ni ixrac edir.

Mal-qaranın otlaqlarda bəslənilməsi üzrə kooperativlər çəmən-otlaq və ya meşə sahələrinin istifadəsi üçün 10 il müddətinə müqavilə bağlayırlar. Bu sahələrdən istifadə etmək üçün icarə haqqı ödənilir. Fermerlər həmin sahələrdə mal-qaranın otarılması ilə bərabər baytarlıq və digər xidmətlərdən istifadə edə bilirlər.

**Dissertasiya işinin "kənd təsərrüfatında kooperasiya münasibətlərinin perspektiv inkişafı adlanan" üçüncü fəslində** kooperasiya münasibətlərinə dövlət dəstəyinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş, kənd təsərrüfatında istehsal, istehlak və çoxfunksiyalı kooperativlərin yaradılmasının zəruriliyi verilmiş və inkişaf istiqamətləri göstərilmişdir.

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, kooperativ müəssisələri və formalaşmaları bir sıra məsələlərin öhdəsindən dövlətin dəstəyi olmadan gələ bilmirlər. O, məsələləri o vaxt həll etmək mümkün ola bilər ki, dövlət makroiqtisadiyyatın yeganə subyekti kimi aqrar sferada ümummilli maraqların həyata keçməsinə çalışsın, kooperativ müəssisənin səmərəli inkişafının stimullaşdırıcısı, nəzarətçisi və əlaqələndiricisi rolunu öz üzərinə götürsün.

Kooperasiya əhatəsində dövlət tənzimlənməsinin zəruri problemləri onun inkişafının əsas istiqamətləri, vahid dövlət siyasətinə inteqrasiya olunmuş regional və bələdiyyə dəstəyi təşkil edir ki, bu da bütövlükdə iqtisadiyyatın səmərəli inkişafını şərtləndirir.

Mövcud sosial - iqtisadi vəziyyətdən asılı olaraq kooperasiyanın inkişafının vacib görünən əsas istiqamətləri bunlardır:

- kollektiv mülkiyyətə əsaslanan kənd təsərrüfatı istehsal kooperativləri, hansı ki, məhsul istehsalını, emalını və satışını və digər fəaliyyət növlərini nəzərdə tutur;
- torpaq və əmlak payları birləşməsi əsasında yaranan kooperasiya;
- kənd təsərrüfatı müəssisələrinin birgə fəaliyyətinə əsaslanan istehsal kooperasiyaları;
- kənd təsərrüfatı məhsullarının emalı üzrə kooperasiya; 5) kredit və satış kooperasiyaları.

Kənd təsərrüfatında kooperasiyanın formalaşması mexanizminin istiqamətləri aşağıdakı səviyyələri əhatə etməlidir: təsərrüfatdaxili, təsərrüfatlararası və ərazi kooperasiyalaşması.

Təsərrüfat subyektlərinin müstəsna hüquqa, səlahiyyətə, imtiyaza malik olmaması kimi aşağıdakı məsələləri dövlət həll etməlidir:

- milli və beynəlxalq ərzaq bazarındakı, kooperativ sektorunda və bütövlükdə aqrar - sənaye istehsalındakı vəziyyət dəyişikliklərinə uyğun ümummilli geniş təkrar istehsal mütənasibliyinin müəyyən edilməsi və tənzimlənməsi. Aqrar işçilərinin sosial müdafiələrinin yol verilən minimal həddinin müəyyənləşdirilməsi və təmin edilməsi.
- ətraf mühitin qorunması üzrə, o cümlədən torpaq resurslarının və onların məhsuldarlıq potensialının saxlanmasına və qaydaları pozanlara qarşı sanksiyaların tətbiqinə dair reqlamentlərin işlənib hazırlanması;
- aqrar sahənin texniki silahlandırılması və maddi - texniki bazasının gücləndirilməsinin strateji istiqamətlərinin işlənib hazırlanması və onların həyata keçirilməsi;
- ölkənin və xarici iri investorlara aqrar sahənin texniki - texnoloji potensialının inkişafına dair məsələlərin həllinə qoyduqları kapitalın geri qaytarılmasına dair təminat verilməsi;

- mükəmməl kooperativ bazanın təminatı;

- kənd təsərrüfat istehsalı üçün lazım olan maddi - texniki resurslara qiymət nisbətinin müəyyənləşdirilməsi və tənzimlənməsi.

Bu məsələləri həll etmək üçün dövlət kooperativ sektorunun inkişafının müəyyən edilmiş və cədvəl 5-də sistemləşdirilmiş qaydada verilmiş idarəetmə formalarından istifadə etməlidir.

Cədvəl 5

| Növ | Məzmun (mahiyyət) | Vasitələr |
|---|---|---|
| Təşkilati | Kooperativ proseslərinin planlaşdırılması, idarə edilməsi və tənzimlənməsi. | Kooperasiyanın inkişafının ümumrespublika və regional məqsədli proqramı.<br>Kooperativ formalaşmalarının təşkilati layihəsi və modeli.<br>Kooperativ müəssisələrin iştirakçılarının təşkilati-texnoloji normaları, normativləri və qarşılıqlı əlaqə qaydaları.<br>Kooperativ təsərrüfatlarının fəaliyyətinin istehsalat-maliyyə və biznes planları<br>Təşkilati xarakterli digər tədbirlər. |
| İqtisadi | Kooperativ formalaşmalarının fəaliyyətinin, kooperativ proseslərinin iqtisadi stimullaşdırılması və tənzimlənməsi. | Vergi, kredit, sığorta ödəmələri, subsidiya və subvensiya.<br>İnvestisiya, qiymət və qiymət mütənasibliyinin təsərrüfat və dövlət tənzimlənməsi.<br>Təsərrüfatlararası və təsərrüfatdaxili hesablaşma.<br>İqtisadi stimullaşdırma, ehtiyat və sığorta fondları.<br>İqtisadçıların qarşılıqlı əlaqələrinin qaydaları, iqtisadi normaları, normativləri.<br>İqtisadi xarakterli digər tədbirlər. |
| Elmi-metodiki | Kooperativ formalaşmalarının fəaliyyətinin, kooperativ proseslərinin inkişafının və təkmilləşdirilməsinin nəzəri və metodoloji əsasları. | Kooperativ proseslərinin inkişafı və təkmilləşdirilməsinə, kooperasiya iştirakçılarının fəaliyyətinin səmərələşdirilməsinə dair metodikalar, təlimatlar, tövsiyələr.<br>İnformasiya-məsləhət xidməti.<br>Kooperativ formalaşmasının və ASK-nın idarəetmə orqanları işçilərinin ixtisaslarının artırılması. |
| Hüquqi | Kooperativ formalaşmalarının fəaliyyəti, kooperativ proseslərinin hüquqi tənzimlənməsi. | Təsərrüfat və respublika səviyyəsində kooperasiyanın stimullaşdırılması və tənzimlənməsinin təşkilati, iqtisadi və elmi-metodiki yollarının həyata keçirilməsi. |

Bunlardan başqa dövlətin müdaxiləsini dörd üsula ayırmaq olar: dövlət orqanlarının ümummilli və ümum regional funksiyalarını yerinə yetirdikləri zaman bilavasitə xidmət; kooperasiyanın normativ - hüquqi tənzimlənməsi; məhsul həcminin, qiymət və qiymət nisbətinin tənzimlənməsi; iqtisadi yardım.

Bilavasitə xidmət dövlət idarəçiliyi orqanlarının tək kooperativ sektorunun müəssisə və təşkilatları deyil, həmçinin həmin ərazidə olan milli iqtisadiyyatın digər sferalarının hüquqi və fiziki şəxsləri üçün də görülən xidmətlərə poçt xidməti, yerli və magistral yolların genişləndirilməsi, elektrikləşdirmə, qaz çəkilişi, telefon çəkilişi, cürbəcür sosial yönlü xidmət göstərilməsi daxildir.

Normativ - hüquqi tənzimləmə – kooperasiyaya dair qanunların və qanunverici aktların qəbulunu nəzərdə tutur. Məsələn. 1996 - cı ildə kooperasiya haqqında Azərbaycan Respublikasının Qanunu, 14 iyun 2016-cı il tarixdə “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunub.

İstehsal həcminin, qiymətin və qiymət nisbətinin tənzimlənməsi əsas vasitələrdən istifadəni şərtləndirir. Qeyd edək ki, hər hansısa səbəb üzündən kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi - texniki resurslara tələbatının aşağı olması ilə əlaqədar dövlət onları alır və əmtəə ehtiyatı yaradır, əksinə tələbat cari istehsal həcmini üstələdiyi təqdirdə dövlət ehtiyatından müəyyən qədər zəruri hissə bazara çıxarılır.

Bu cür tədbir sayəsində dövlət ərzaq məhsullarının və kənd üçün lazım olan maddi - texniki resurslarının kəskin qiymət dəyişikliklərinin qarşısını ala bilir.

Kənd təsərrüfatı məhsulları istehsalı həcminin, qiymətin və qiymət nisbətinin (əlaqələrinin) dövlət tənzimlənməsinin ikinci istiqaməti – müəyyən növ kənd təsərrüfatı məhsullarına, ixrac kvota sistemlərinin və

rüsumlarının tətbiqini və rüsumların konyunkturasından asılı olaraq idxalatın müdaxiləsini məhdudlaşdıraraq daxili məhsulun rentabelliyini təmin edəcək qiymətlərlə məhsulun satılması üçün münbit şərait yaratmaq mümkündür.

Kooperasiyanın mühitinin və ona münasibətin dəyişməsi və keyfiyyətcə yeni xüsusiyyət daşıması onun gələcəyinə nikbin baxmağa əsas verir. Bu da kooperativ müəssisələrində istehsal həcminin və səmərəliliyinin yüksəlişinə səbəb ola bilər.

Dövlət kooperativ sahəsini inkişaf etdirərkən bir sıra ümumi maraqların da həyata keçiriləcəyini nəzərdə tutulur. Həyata keçiriləcək tədbirlər bazarın təkmilləşdirilməsi, vətəndaşların maarifləndirilməsi, məşğulluq problemi, mədəni dəyərlər daxildir. Bu tədbirlər müqabilində kooperativlərin müstəqil fəaliyyəti qanunla təmin olunmalıdır.

İstehsalın səmərəliliyinə səbəb olan kənd təsərrüfatı kooperativinin inkişaf etdirilməsi üçün yeni konstruktiv yanaşma tələb olunur.

Müasir dövrdə kooperasiya problemlərinin həllində əsas məsələ aşağıda qeyd edilən istiqamətlərdə tədbirlərin hazırlanıb həyata keçirilməsindən ibarət olmalıdır:

- kooperasiya üzvlərinin sosial-iqtisadi maraqlarının təmin edilməsi;
- normativ sənədlər vasitəsilə öz üzvlərinin hüquqlarının müdafiəsini təmin edən kooperativ təsərrüfat formasının yaradılması və fəaliyyət göstərməsi prinsiplərinin işlənib hazırlanması və həyata keçirilməsi;
- müxtəlif təsərrüfatçılıq formalarında tərəfdaşların balanslaşdırılmış maraqlarını təmin edən iqtisadi münasibətlərin yaradılması;
- idarəetmədə kooperativ üzvlərinin iştirakı;
- müxtəlif səviyyədə kooperasiya və inteqrasiya əlaqələrinin inkişafının təşkilati formasının müəyyən edilməsi.

Hesab edirik ki, kooperasiya bazarın tələbatı baxımından aşağıda qeyd edilən istiqamətdə inkişaf edəcək:

- istehsal, emal kənd təsərrüfatı məhsulunun emalı və satışı, həmçinin başqa fəaliyyət növü ilə məşğul olan insanların sosial-iqtisadi maraqlarının ödənilməsinə istiqamətlənmiş, kollektiv mülkiyyətə əsaslanan kənd təsərrüfatı istehsal kooperasiyası;
- əmlak və torpaq paylarının birləşdirilməsinə, məhsul istehsalında, kənd təsərrüfatı məhsulunun emalı və satışında kollektivin maraqlarına uyğun digər fəaliyyət növlərində şəxsi əməklərinə əsaslanan kənd təsərrüfatı istehsal kooperativləri;
- birgə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinə şəxsi yardımçı və fermer təsərrüfatlarına əsaslanan istehsal kooperasiyası;
- kənd təsərrüfatı istehsalını və digər işləri birgə yerinə yetirən kəndli (fermer) kooperasiyası;
- kənd təsərrüfatı məhsulunun emalı kooperasiyası;
- maddi-texniki təchizat kooperasiyası və s.

Kooperasiyanın inkişafının təsnifatına dünya alimlərinin yanaşmaları müxtəlifdir. Rusiya alimlərindən V.İ.Frolov kooperasiyanın inkişafının təsnifatını belə verir: təsərrüfatdaxili kooperasiyalaşma; yenidən təşkil edilmiş kənd təsərrüfatı müəssisələrinin bazasında kooperativ formalaşmalarının yaradılması rayon, rayonlararası və vilayət səviyyəsində kooperativləşmə.

Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2016 - cı il tarixli Fərmanı ilə "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanun təsdiq edilsə də, qanundan irəli gələn digər məsələlərin öz həllini tapması üçün "Kənd təsərrüfatı kredit kooperativləri haqqında Azərbaycan Respublikasının Qanunu"nun qəbul edilməsinə də zərurət vardır.

Qəbul edilməsini təklif etdiyimiz qanunda aşağıdakıların nəzərdə tutulması məqsədəuyğundur:

- üç səviyyəli təşkilati strukturların yaradılması - aşağı, rayon kredit kooperativləri, regional kooperativ bank və mərkəzi kooperativ bank;
- banklar arasında rasional vəzifə bölgüsü, bir sıra səlahiyyət və öhdəliklərin baş kooperativ banka verilməsi (istiqrazların, investisiya, qiymətli kağızlar və s. buraxılışı);
- kapitalın pay haqqı, kooperativ üzvlərinin qoyduqları əmanətin kredit fəaliyyətindən əldə edilən mənfəət hesabına formalaşması;
- həcmi pay fondunun 10-15 %-dən az olmamaqla ehtiyat fondunun yaradılması;
- əməliyyat aparılan ilin nəticələrinə görə mənfəətin və ya zərərin payçılar arasında üzvlük haqları nəzərə alınmaqla proporsional qaydada bölünməsi;
- üzvlük haqqının həcmindən asılı olmayaraq yığıncaqda hər bir payçı bir səsə malik olmaqla qəbul edilən qərarların demokratikliyini ehtiva edən nizamnamənin işlənib hazılanması.

Kənd kredit kooperativlərinin təşəkkül tapması kredit resurslarını, kadr hazırlığını, maddi və normativ metodiki təminatı da daxil etməklə böyük vəsait tələb edir. Onları aşağıda göstərilən mənbələr hesabına

formalaşdırmaq mümkündür: dövlət büdcəsi; pay üzvlük haqqı; kooperativ bankların maliyyə resurslarının cəlb edilməsi. "Aqrobank" kooperativ bankların formalaşmasının bazası ola bilər.

İnkişaf etmiş ölkələrin əksəriyyətində kənd təsərrüfatı kooperasiyası kənd təsərrüfatı istehsalının və müvafiq müəssisələrin yaradılması yolu ilə texniki xidməti təşkil edən mürəkkəb sosial - iqtisadi quruma çevrilib. Aqrar sahədə kooperativ fəaliyyətinin əsas istiqamətlərindən biri fermer təsərrüfatlarının maddi - texniki təchizatıdır. Əsasən bu funksiyanı ixtisaslaşdırılmış təchizat kooperativləri yerinə yetirir. Avropa Birliyi İttifaqında kənd əmtəə istehsalçılarına vacib olan istehsal vasitələrinin ümumi həcminin 50 %-ni, İsveç, Norveç və Finlandiyada 60 %-ni, ABŞ-da 26 %-ni tədarük - təchizat kooperativləri yerinə yetirir. ABŞ-da, Almaniyada, Fransada, Hollandiyada, İsveçdə, Danimarkada və Norveçdə kooperativlər fermerlərə lazım olan gübrənin 45-65 %-ni, yem təminatının isə 40 - 65 %-ni həyata keçirirlər. Fermerlərin toxum, texnika, yanacaq, sürtgü materiallarına olan tələbatının müəyyən hissəsini də təchizat kooperativləri ödəyir. Bəzi sahəvi ticarət kooperativləri də təchizat funksiyasını yerinə yetirirlər. Bitkiçilik məhsullarının emalı və satışı ilə məşğul olan kooperativlər fermerləri elit toxumlarla, gübrə ilə, kimyəvi maddələrlə və lazımi texniki resurslarla təmin edir.

Kooperativ "birgə sahibkarlıq və demokratik olaraq idarə edilən sahibkarlıq təşəbbüsü vasitəsilə ümumi iqtisadi, sosial və mədəni ehtiyacları və istəklərini yerinə yetirmək üçün könüllü olaraq bir araya gələn insanların müstəqil birləşməsi" kimi müəyyən olunur. 1995-ci ildə Beynəlxalq Kooperativlər İttifaqının (ICA) məlumatına görə; "Kooperativ könüllü olaraq ümumi iqtisadi, sosial və mədəni ehtiyaclarını qarşılamaq üçün bir araya gələn və müstəqil insanların birliyidir" Çox məqsədli kooperativ cəmiyyətinin bir çox funksiyası var. Adından göründüyü kimi müxtəlif məqsədlər üçün məsuliyyəti nəzərdə tutur. Üzvlər üçün kredit, təkmilləşdirilmiş toxum, kənd təsərrüfatı alətləri, gübrələr, santexnika, sağlamlıq və s.

İqtisadi rayonlarda kənd təsərrüfatı müəssisələrinin maddi - texniki resurslara təminat məsələsi bir sıra yollarla həll edilə bilər. Burada şablon bir model təklif etmək düzgün olmazdı. Tənzimləməni dövlət öz üzərinə götürməklə, emal sənaye müəssisələri sabit xammal bazasına malik olmaları üçün kənd təsərrüfatı müəssisələrini maddi-texniki resurslarla təmin edə bilər. Hesab edirik ki, indiki durumda kənd təsərrüfatı müəssisələri mövcud vəziyyətdən çıxmaq üçün sərbəst vəsaitləri və bank kreditindən istifadə etməklə aqroservis kooperativləri yarada bilərlər.

Qeyd etmək lazımdır ki, bir sıra təsərrüfat rəhbərləri kollektiv alınmış texnikanı vaxtında istifadəyə götürə bilməmələri barədə şikayətlənirlər. Çünki aqrotexniki müddət bütün təsərrüfatlar üçün demək olar ki, eynidir. Narazılıqların aradan qaldırılması üçün ilk növbədə texnika ilə təmin olunmamış təsərrüfatların mexaniki və məhsul yığımı işləri müəyyənləşdirilməlidir. İkincisi, texnikanın bir təsərrüfatdan digərinə verilməsinin ciddi qrafiki tutulmalıdır. Pulla əldə edilmiş və lizinqə götürülmüş texnika kooperativin zəruri işlərinin aqrotexniki müddətdə yerinə yetirilməsi üçün yetərincə olmalıdır. Xarici ölkələrin təcrübəsi sübut edir ki, texnikanın təsərrüfatlararası kooperasiya yolu ilə əldə edilməsi və istifadəsi nəticəsində texnikanın illik işlə yüklənməsi 4 dəfəyədək artır, mexaniki işlərin məsrəflərini 30-50 % azaldır, təsərrüfatın texniki bazasının formalaşmasına kapital qoyuluşunu 20-25 %-dək ixtisara salır.

Göstərilən bütün bu kooperativ formaları çoxfunksiyalı kooperativlərin yaranması üçün ilkin baza ola bilər. Çoxfunksiyalı kooperativlərin səmərəli fəaliyyəti onun özündə ixtisaslaşmış kooperativləri cəmləməsindən asılıdır. Müxtəlif istiqamətli ixtisaslaşmış kooperativlərin birləşərək bir araya gəlməsi onların fəaliyyətinin iqtisadi səmərəliliyinin daha da yüksəldilməsini təmin edir.

Dissertasiyanın sonunda tədqiqat prosesində əldə edilmiş nəticələr irəli sürülən təklif və tövsiyələr şərh olunmuşdur.

**Dissertasiya işinin əsas müddəaları aşağıda verilmiş siyahı üzrə dərc olunmuş elmi məqalə və tezislərdə öz əksini tapmışdır.**

1. Sosial ədalət probleminin həlli sosial siyasətin mühüm amilidir. Az.ETKTİ və Tİ-nin elmi əsərləri. Bakı - 2009, № 4, 0,1 ç.v.

2. Əhalinin sosial-iqtisadi vəziyyətinin statistik qiymətləndirilməsi. Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemlərinə həsr edilmiş respublika elmi-praktik konfransının materialları. Bakı - 2009, 0,1 ç.v.

3. Heydər Əliyev siyasətinin iqtisadi və sosial strategiyası., Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi. Əmək və sosial problemlər. Elmi əsərlər toplusu. 2010, №1 (6), 0,3 ç.v.

4. Kooperasiya və inteqrasiya əlaqələrinin kənd təsərrüfatının inkişafında rolu. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi Əsərləri, № 3, Bakı - 2015, 0,4 ç.v.

5. Kənd təsərrüfatının milli iqtisadiyyatın inkişafında yeri və rolu. Azərbaycan Aqrar Elmi, № 4, Bakı - 2015, 0,4 ç.v.

6. Kooperasiyanın dövlət tənzimlənməsi və himayəsinin təkmilləşdirilməsi. Azərbaycan Aqrar Elmi, № 5, Bakı - 2016, 0,2 ç.v.

7. İstehsal və istehlak kooperativlərinin inkişafı. Azərbaycan Turizm və Menecment Universiteti. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal, 2016-5, №4, 0,9 ç.v.

8. Xarici ölkələrin kənd təsərrüfatında kooperativ sistemləri (ABŞ təcrübəsi). Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Elmi Əsərləri № 3, Bakı - 2016, 0,4 ç.v.

9. Развитие производственных и потребительских кооперативов в Азербайджане. Рынок и эффективность производства – 14: Сб. трудов Междунар. нау. практ. конф. студентов, магистрантов, аспирантов и докторантов посв. 25-летию Гуманитарно-технической академии.- Кокшетау: Гуманит.-тех.академия, 2017 г.-535 с. 0,4 ç.v.

10. Kənd təsərrüfatının inkişafında kooperativlərin rolu və onun inkişaf istiqamətləri. Gəncə Dövlət Universiteti. Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri mövzusunda elmi konfrans materialları. Gəncə - 2018. 0,3 ç.v

**Организационно-экономические основы формирования и развития кооперации в сельском хозяйстве**

**Джавадов Анар Натиг оглы**

**Резюме**

В диссертационной работе были проведены научные исследования по развитию кооперационных отношений, которые включали личные, коллективные и общественные интересы в рамках эффективного развития сельского хозяйства.

В работе указана важность кооперации, обосновано рациональное использование труда, финансов, материально-технических и других ресурсов с целью развития кооперационных отношений.

Во введении обоснована актуальность темы, оценено состояние изученности проблемы, изложены цель и задачи исследования, объект и предмет, научно-методологические основы, информационная база. Здесь излагается научная новизна, практическая значимость исследования, тестирование и использование его результатов.

В первой главе диссертации, озаглавленной «**Теоретико-методологические основы кооперации в сельскохозяйственном производстве»**, проанализированы теоретические и методологические основы кооперации, ее характерные особенности, выяснено социально-экономическое значение форм и видов кооперации, а также роль и важность развития отношений кооперационно-интеграционных отношений в устойчивом развитии аграрного сектора.

Во второй главе, озаглавленной «**Анализ текущей ситуации в развитии кооперативных отношений в сельском хозяйстве»**, изучены и проанализированы современное состояние развития кооперации в сельском хозяйстве, уровень обеспечения материально-техническими ресурсами сельского хозяйства, уровень использования производственными ресурсами и мировой опыт развития кооперационных отношений.

В третьей главе, озаглавленной **«Перспективное развитие кооперационных отношений в сельском хозяйстве»,** были определены направления совершенствования государственной поддержки кооперативных отношений, указана необходимость создания производственных и потребительских кооперативов в сельском хозяйстве, многофункциональных кооперативов и направления их развития.

В конце диссертации даны предложения и рекомендации, сделанные в процессе исследования.

**Javadov Anar Natig**

**The organizational-economic basis of formation and development of corporation in agriculture**

**Abstract**

In the thesis, research was conducted on the development of cooperative relations, which included personal, collective and public interests within the framework of effective development of agriculture.

The paper indicates the importance of cooperation, rational use of labor, finance, material and technical and other resources for the development of cooperative relations is justified.

In the introduction, the relevance of the topic is substantiated, the state of the study of the problem is assessed, the purpose and objectives of the study, the object and the subject, scientific and methodological bases, and the information base are set out. Here the scientific novelty, the practical significance of the research, testing and use of its results are presented.

In the first chapter of the thesis, entitled **"Theoretical and methodological foundations of cooperation in agricultural production"**, the theoretical and methodological foundations of cooperation, its characteristics, analyzed the socio-economic significance of forms and types of cooperation, and the role and importance of developing relations of cooperation and integration in sustainable development of the agricultural sector.

In the second chapter, entitled **"Analysis of the current situation in the development of cooperative relations in agriculture"**, the current state of development of cooperation in agriculture, the level of provision of material and technical resources of agriculture, the level of use of productive resources and the world experience in the development of cooperative relations were studied and analyzed.

In the third chapter, entitled **"Perspective development of cooperative relations in agriculture",** the directions for improving state support for cooperative relations were identified, the need for the creation of

production and consumer cooperatives in agriculture, multifunctional cooperatives and the direction of their development was indicated.

At the end of the dissertation, suggestions and recommendations made during the research are given.